“Əlcəklərin istifadəsi” məlumat vərəqi.

(Ümumdünya Səhiyyə Təşkilatının məlumat vərəqi əsasında hazırlanmışdır)

Tibbi əlcəklərin potensial patogen mikroorqanizmlərin ötürülməsinin qarşısının alınması məqsədilə istifadəsinin sübutunun müzakirəsi və qısa təsviri

Tərif
Tibbi əlcəklər, tibbi prosedurlar zamanı istifadə olunan təkistifadəlik əlcəklərdir; onlara aşığıdakılar aid edilir: 1. Müayinə əlcəkləri (qeyri-steril və ya steril) 2. Cərrahi əlcəklər, hansı ki, xüsusi qalınlığına, elastikliyinə və möhkəmliyinə görə xarakterizə olunur; cərrahi əlcəklər steril olmalıdır 3. Kimyaterapiya üçün əlcəklər – verilmiş sənəddə bu növ əlcəklərə baxılmır

Tibbi əlcəklərin istifadəsinin əsaslandırması:

Tibbi əlcəklərin istifadəsi iki əsas səbəb üzrə tövsiyə olunur:

1. tibb heyətinin əllərinin qan və digər bioloji mayelərlə çirklənmə riskini azaltmaq;
2. xarici mühit obyektlərinin potensial patogen mikroorqanizmlərlə çirklənməsi və onların tibb heyətindən personala və əksinə, eləcə də bir pasiyentdən digərinə ötürülməsi riskini aşağı salmaq.

Bu səbəbdən əlcəklər, qanla və digər bioloji mayelərlə təmas (o cümlədən selikli qişalarla və zədələnmiş dəri ilə təmas) ola biləcək bütün manipulyasiyaların aparılması zamanı, eləcə də təmasla bağlı ehtiyat tədbirləri[1] görülərkən və epidemiya zamanı istifadə edilməlidir.

[1] Təmasla bağlı ehtiyat tədbirləri infeksion agentlərin, o cümlədən pasiyentlə və ya pasiyentin ətrafındakı xarici mühit obyektləri ilə birbaşa və ya dolayı təmasla ötürülən epidemioloji vacib mikroorqanizmlərin ötürülməsinin profilaktikası üçün nəzərdə tutulmuşdur. Təmasla bağlı ehtiyat tədbirləri multirezistent mikroorqanizmlər və ya onların koloniyaları tərəfindən törədilmiş infeksiyaya malik pasiyentlərə nəzərən, eləcə də pasiyentdə xarici mühit obyektlərinin geniş şəkildə kontaminasiya potensialının və infeksiyanın ötürülmə riskinin artacağının gözlənildiyi, çoxlu miqdarda yara ifrazatının axması, diareya və ya orqanizmin digər ifrazatları müşahidə edildikdə tətbiq olunur.

Tibb heyətinin əllərinin çirklənməsinin qarşısının alınması və tibbi yardım göstərilərkən mikroorqanizmlərin ötürülməsi riskinin azaldılması üçün əlcəklərin effektivliyi bir neçə klinik tədqiqatlarla təsdiq olunmuşdur. Bununla belə, tibb işçiləri məlumatlanmış olmalıdır ki, əlcəklər əllərin kontaminasiyadan tam mühafizəsini təmin etmirlər. Mikroorqanzimlər əlcəkləri geymiş şəxslərin əllərinə əlcəklərin üzərindəki kiçik defektlərdən və ya əlcəklərin çıxarılması zamanı əllərin çirklənməsi ilə düşə bilərlər. Gigiyenik antiseptika və ya sabunla yuma, əlcəklər çıxarıldıqdan sonra əllərin dekontaminasiyasının əsas zəmanətli üsullarıdır.

Yadda saxlanılmalı olan əsas müddəalar: əlcəklər əllərin kontaminasiyadan tam mühafizəsini təmin etmirlər.

Əlcəklərdən istifadə təcrübəsinin əllərin gigiyena qaydalarına riayət edilməsinə təsiri kifayət qədər əminliklə təyin edilməmişdir, belə ki, bir sıra tədqiqatların dərc olunmuş məlumatları ziddiyyətli nəticələr verir. Bununla belə, təmas olunması təmasla bağlı ehtiyat tədbirlərinə riayət olunmasını tələb edən pasiyentə yardım göstərildiyi bütün müddət ərzində əlcək geyinməklə bağlı tövsiyə, onların çıxarılması ilə bağlı göstərişlər, məsələn, əllərin gigiyenik işlənilməsi ilə bağlı göstəriş hesaba alınmadıqda faktiki olaraq mikroorqanizmlərin ötürülməsinə gətirib çıxara bilər.

Yadda saxlanılmalı olan əsas müddəalar: təmasla bağlı ehtiyat tədbirləri gözlənilməklə, əllərin gigiyenik antiseptik işlənilməsi olmadan əlcəklərdən davamlı isitfadə potensial patogen mikroorqanizmlərin ötürülməsinə səbəb ola bilər

Əlcəklərin istifadəsi və əllərin gigiyenası üçün zəruri tədbirlər:

- əllərin gigiyenasının aparılmasına dair göstəriş əlcəklərin istifadəsini tələb edən təmasdan əvvəl olduqda, əllərin gigiyenası (antiseptiklə işlənmə və ya sabunla yuma) *əlcəklər geyilməzdən əvvəl* aparılmalıdır;
- əllərin gigiyenasının aparılmasına dair göstəriş əlcəklərin istifadəsini tələb edən təmasdan sonra olduqda, əllərin gigiyenası (antiseptillə işlənmə və ya sabunla yuma) *əlcəklər çıxarıldıqdan sonra* aparılmalıdır;
- əllərin gigiyenasının aparılmasına dair göstəriş tibb işçisi əlcəkləri geyinmiş olduğu müddətdə yaranmış olduqda, *əlcəklər çıxarılmalı* və əllərin gigiyenik antiseptikası aparılmalı və ya onlar sabunla yuyulmalıdır.

Əlcəklərdən qeyri-düzgün istifadə:

- göstəriş olmadan əlcəklərdən istifadə maddi resursların lüzumsuz sərfiyyatı olub, potensial patogen mikroorqanizmlərin çarpaz ötürülmə səviyyəsinin endirilməsinə kömək etmir;
- həmçinin bu, əllərin gigiyenik işlənilməsinin aparılmalı olduğu halların ötürülməsinə səbəb ola bilər;
- qeyri-düzgün saxlanılması, geyilmə və çıxarılma texnikası və istifadəsinə dair qeyri-düzgün göstərişlərlə əlaqədar kontaminasiya olunmuş əlcəklərdən istifadə də potensial patogen mikroorqanizmlərin ötürülməsinə səbəb ola bilər.

Yadda saxlanılmalı olan əsas müddəalar: tibb işçilərinin əlcəklərin geyilməsi və ya dəyişdirilməsinin zəruri olduğu xüsusi klinik vəziyyətləri, eləcə də onların istifadəsinə zərurətin olmadığı vəziyyətləri müəyyən etməyə qadir olmaları vacibdir ("Əlcəklər" Piramidası şəklinə baxın). Bundan əlavə tibb işçisi, əlcəklərin məhz nə zaman geyilməli və çıxarılmalı olması barədə dəqiq informasiyaya sahib olmalıdır (cədvələ bax).

İstifadə olunan əlcəklərin növləri:

Ümumi strategiya olaraq talksız əlcəklərin seçilməsi tövsiyə olunur, belə ki, bu, tibb müəssisəsində tətbiq olunan spirt tərkibli antiseptiklərlə reaksiyadan qaçılmasına imkan verir.

Təkrar istifadə / təkrar emal:

- tibbi əlcəklər – təkistifadəlik vasitə olduqlarından əlcəklərin dekontaminasiyası və təkrar emalı tövsiyə olunmur və buna, hətta maddi resursları az və əlcək ehtiyatı məhdud olan bir çox tibb müəssisələrində adi praktika olmasına baxmayaraq yol verilməməlidir;
- hazırki dövrdə əlcəklərin standartlaşdırılmış, etibarlı və qiymət baxımından əlverişli, təhlükəsiz təkrar emal üsulu mövcud deyil.

Tibb müəssisələrində əlcəklərin təkrar istifadəsinə yol verilməməsi üçün bütün mümkün tədbirlər, məsələn, əlcəklərin etibarsız şəkildə istifadə miqyasının azaldılması məqsədilə maarifləndirmə işləri aparmaq, yaxşı keyfiyyətli təkistifadəlik əlcəklər almaq və vaxtlı-vaxtında ehtiyatları doldurmaq kimi tədbirlər görülməlidir.

Tibbi əlcəklərin praktik istifadəsi üzrə əsas müddəaların qısa siyahısı:

- əlcəklər, tibb heyətinin əllərinin kontaminasiyasının qarşısını almağa və potensial patogen mikroorqanizmlərin ötürülmə miqyasının azaldılmasına imkan verən efektiv vasitədir. Effektivlik iki əsas faktordan asılıdır:
  - əlcəkdən yalnız zərurət olduqda istifadə;
  - gigiyenik antiseptika və ya əllərin sabunla yuyulması üsulları ilə əllərin vaxtlı-vaxtında gigiyenası.
- əlcəklərdən təhlükəsiz istifadə aşağıdakıları ehtiva edir:
  - əlcəklərin kontaminasiyasının qarşısını alan düzgün geyilmə texnikasının tətbiqi;
  - tibb işçilərinin əllərinin kontaminasiyasının qarşısını alan düzgün çıxarılma texnikası (*"Müayinə üçün qeyri-steril əlcəklərin geyilmə və çıxarılma metodikası"* şəklinə bax).
- zərurət olmadıqda əlcəklərin istifadəsi və onlardan qeyri-düzgün istifadə, maddi vasitələrin lüzumsuz sərfiyyatına gətirib

çıxara və potensial patogen mikroorqanizmlərin ötürülmə riskini artıra bilər;

- əlcəklərin istifadəsinə və onların dəyişdirilməsinə zərurətin minimuma endirilməsi üçün tibb heyəti, prosedurların rasional icra texnikasına uyğun şəkildə planlaşdırılması və yerinə yetirilməsi üzrə, eləcə də potensial kontaminasiya baş verə biləcək yerlərə mümkün olduğu qədər toxunmamağa imkan verən texnikanın tətbiqi üzrə təlim almalıdır;
- əlcəyin tamlığı pozulmuş olduqda (məsələn, deşildikdə) o, mümkün olduğu qədər tez dəyişdirilməli və əllərin gigiyenik antiseptikası aparılmalıdır;
- HBV (hepatit B virusu), HCV (hepatit C virusu) və İİV (insanın immunçatışmazlığı virusu) infeksyalarının yüksək yayılma göstəricisi olan ölkələrdə davamlı cərrahi prosedurlar (30 dəqiqədən çox), eləcə də böyük həcmdə qan və ya digər bioloji mayelərlə təması nəzərdə tutan prosedurlar və yüksək riskli bəzi ortopedik prosedurlar həyata keçirilərkən iki cüt əlcəkdən istifadə praktikası daha məqsədəuyğun sayılır;
- əl üçün vazelin əsaslı losyonların və ya kremlərin istifadəsi, lateks əlcəklərin tamlığına mənfi təsir göstərə bilər, əllərin gigiyenik antiseptikası üçün bəzi spirt əsaslı vasitələr isə tibb işçilərinin əllərindəki talk qalıqları ilə bir-birlərinə qarşılıqlı təsir göstərə bilərlər.

Əlcəklərin istifadəsi üzrə ümumiləşdirilmiş tövsiyələr:

A. əlcəklərdən istifadə heç bir halda əllərin gigiyenasının aparılması üçün göstərişləri dəyişmir və əllərin gigiyenik antiseptikası və ya əllərin sabunla yuyulması kimi tədbirləri əvəzləmir;

B. əlcəkləri, qanla və ya digər bioloji mayelərlə, selikli qişalarla, zədələnmiş dəri ilə və ya potensial infeksiyalaşmış materialla təmasın ola biləcəyini güman etməyə əsas olduqda geyinin.

C. əlcəkləri pasiyentə yardım göstərdikdən sonra çıxarın. Birdən çox pasiyentlə təmas zamanı eyni cüt əlcəkləri istifadə etməyin;

D. əlcəkləri geyinmiş olduqda, onları aşağıdakı hallarda dəyişin və ya çıxarın: pasiyentə yardım göstərərkən bədənin kontaminasiya olmuş hissəsindən digər hissəsinə (o cümlədən selikli qişalar, zədələnmiş dəri və ya pasiyentin bədəninə yeridilmiş, yaxud da yanında olan tibb vasitəsi) keçərkən;

E. təkrar emaldan və ya dekontaminasiyadan sonra əlcəklərin təkrar istifadəsi məsləhət görülmür.

Cədvəl. Əlcəklərin geyilməsinə və çıxarılmasına dair göstərişlərin qısa siyahısı

	Göstəriş
Əlcəklər geyilmiş olmalıdır	1) sterillik şərtləri tələb edən aseptik prosedurdan qabaq; 2) sterillik şərtlərinə riayət etmək zəruriyyətindən asılı olmayaraq, qarşıda qanla və ya digər bioloji mayelərlə, o cümlədən zədələnmiş dəri və selikli qişalarla təmas olacaqdırsa; 3) təmasla bağlı ehtiyat tədbirləri gözlənilərkən pasiyentlə (və bilavasitə onun ətrafındakı xarici mühit obyektləri ilə) təmas olduqda.
Əlcəklər çıxarılmış olmalıdır	1) əlcəklər zədələndikdən (və ya tamlığının pozulmasına şübhə yarandıqdan) dərhal sonra; 2) qanla, digər bioloji mayelərlə və ya zədələnmiş dəri ilə və selikli qişalarla təmas başa çatdıqdan sonra; 3) bir pasiyentlə və onun ətrafındakı xaric mühit obyektləri ilə və ya pasiyentin orqanizminin kontaminasiyalı hissələri ilə təmas başa çatdıqdan sonra; 4) əllərin gigiyenasının aparılmasına göstəriş olduqda.

“Əlcəklər” Piramidası, əlcəklər geyilməli (və ya geyilməməli) olduqda qərar qəbul edilməsinə yardımçı olacaqdır.


Əldə əlcəklərin daşınması, **standart və təmasla bağlı ehtiyat tədbirlərinə** uyğun olaraq həyata keçirilməlidir. Piramidada əlcəklərin istifadə edilməli olduğu bəzi klinik vəziyyətlər, eləcə də steril və qeyri-steril əlcəklərin istifadəsi ilə bağlı göstərişlərin olduğu nümunələr ətraflı təsvir olunmuşdur. Əllərin gigiyenası, əlcəklərin istifadəsi ilə bağlı göstərişlərin olmasından asılı olmayaraq, zəruri olduğu hallarda yerinə yetirilməlidir.




Qeyri-steril (müayinə üçün) əlcəklərin geyilmə və çıxarılma metodikası

əllərin gigiyenasının aparılmasına dair göstəriş əlcəklərin istifadəsini tələb edən təmasdan əvvəl olduqda, əllərin gigiyenası (antiseptiklə işlənmə və ya sabunla yuma) *əlcəklər geyilməzdən əvvəl* aparılmalıdır


I. ƏLCƏKLƏRİN GEYİLMƏ QAYDASI:




1. Əlcəyi qablaşmadan (qutudan) çıxarın.




2. Əlcəyin, yalnız bilək üzərində qalacaq hissəsinə (manjetin yuxarı kənarı) toxunun.




3. Əlinizə birinci əlcəyi geyinin.



4. İkinci əlcəyi sərbəst (əlcəksiz) əlinizlə götürün və yalnız bilək üzərində qalacaq hissəsinə toxunun.




5. Əlcək geyindiyiniz əlin qolun dərisi ilə təmasına yol verməmək üçün əlcəyin xarici səthini əlcəkdəki əlin bükülmüş barmaqlarına geyindirə biləcək tərzdə, xaricə doğru qatlayın; bu, sizə ikinci əlcəyi geyinməyə imkan verəcəkdir.




3. Əlcəklər geyildikdən sonra, təmas olunması əlcəklərin dəyişdirilməsi üçün göstəriş sayılan heç bir xarici mühit obyektinə toxunmaq olmaz.


II. ƏLCƏKLƏRİN ÇIXARILMA QAYDASI:



1. Çıxarmaq üçün əlcəyin birini bilək nahiyəsində barmaqlarınızla tutun, qolun dərisinə toxunmayın və onu əlinizdən elə dartıb çıxarın ki, əlcək, tərsinə çevrilsin.



2. Çıxarılmış əlcəyi əlcəkli əlinizlə tutun, əlcəyini çıxarmış olduğunuz əlin barmaqlarını daxilə - ikinci əlcəklə bilək arasına daxil edin. İkinci əlcəyi bürmələməklə əlinizdən çıxarın və birinci əlcəyin içinə qoyun.



3. Çıxarılmış əlcəkləri utilizasiya edin.

4. Sonra gigiyenik antiseptika və ya əllərin sabunla yuyulması yolu ilə əllərin gigiyenasını yerinə yetirin.